BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2005*

# NEKROLOQ

## ƏSRƏ BƏRABƏR ÖMÜR



2005-ci ildə Azərbaycanın hüquq aləmində böyük itki oldu. Görkəmli alim, Azərbaycanda hüquqşünas alimlərin ağsaqqalı, hüquq elmləri doktoru, professor, cinayət prosesi kafedrasının müdiri **Cəfər Hacı Həsən oğlu Mövsümov** öz dünyasını dəyişdi.

Cəfər müəllim 1927-ci ildə yanvarın birində Bakı şəhərində neftçi ailəsində dünyaya gəlmişdi. Hələ erkən, 5 yaşı olarkən Cəfər atası Hacı Həsən kişini itirmiş, 10 nəfər bacı-qardaşla birlikdə anası Şirinbacı xanımın himayəsində tərbiyə almışdı. Ailənin üzləşdiyi maddi çətinliklər 12 yaşında Cəfəri işləmək məcburiyyətində qoymuşdu. Axşamlar məktəbdə təhsilini davam etdirən, gündüzlər ayaqqabı təmiri emalatxanasında, karamel fabrikində, yay tətili dövründə isə Bilgəhdəki zəfəran plantasiyalarında çalışan, qəlbində gənclik illərinin min bir arzu-diləyi çağlayan Cəfərin ömrünün ilk şərəfli səhifələri beləcə yazılmağa başlanmışdı.

Müharibənin doğurduğu faciə və məhrumiyyətlər, ailənin çətinlikləri gənc Cəfəri ruhdan salmadı. O, 1944-cü ildə orta məktəbi qurtararaq Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil oldu. Hələ yeniyetməlik dövründə zəhmətə alışan Cəfər universitetdə həvəslə oxuyur, tezliklə özünun çalışqanlığı və təhsildəki uğurları ilə seçilir. Fakültədə əla qiymətlərlə oxuduğundan o, 1946-cı ildə təhsilini davam etdirmək üçün Leninqrad şəhərinə, M.İ.Kalinin adına Hüquq İnstitutuna ezam edilir. Bütün çətinliklərə baxmayaraq, o, 1948-ci ildə Leninqradda təhsilini başa çatdıraraq yenidən Bakıya – doğma universitetə qayıdır və müəllimlik fəaliyyətinə başlayır.

Müharibədən sonrakı ilk illərdən universitetdə milli kadrların çatışmamasını nəzərə alaraq universitetin rəhbərliyi Cəfər müəllimi Moskvaya, SSRİ EA-nın Dövlət və Hüquq İnstitutuna məqsədli aspiranturaya göndərir. Cəfər müəllim 1948-ci ildə qəbul imtahanlarını uğurla verərək istehsalatdan ayrılmaqla aspiranturaya daxil olur. Moskvada aspirantura illəri Cəfər müəllimin mənalı həyatının yeni səhifələrini açır. Cəfər müəllim prof. N.M.Polyanski, prof. A.N.Traynin, prof. V.Çkikvadze və digər görkəmli alimlərin apardığı elmi seminarların iştirakçısı olur. O, hüquq elmində böyük irs qoymuş akademik M.S.Stroqoviç kimi məşhur alimin rəhbərliyi altında vaxtından əvvəl başa çatdırdığı namizədlik dissertasiyasını 1951-ci ildə sentyabrın 30-da uğurla müdafiə etmiş və hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır.

Hüquq elmləri namizədi diplomu ilə Bakıya qayıdan Cəfər universitetdə cinayət hüququ kafedrasında yenidən müəllimliyə başlamış, cinayət prosesi və kriminalistika fənnlərindən mühazirələr oxumuşdur. Cəfər müəllim pedaqoji fəaliyyətlə yanaşı, elmi axtarışlarını da davam etdirmişdir. Bu dövrdə onun «Azərbaycan SSR-də ilk cinayət-prosessual aktları», «Cinayət mühakimə icraatında zərər çəkənin hüquqlarının və qanuni mənafeyinin təmin edilməsi haqqında məsələyə dair», «Azərbaycanda sovet məhkəmə sisteminin yaradılması», «Şəxsin müqəssir qismində cəlb edilməsinin əsasları», «İbtidai istintaqın obyektivliyi, tamlığı, hərtərəfliliyi prinsipi haqqında», «Məhkəmədə yeni şəxs barəsində,yeni açılmış hallar üzrə işin qaldırılması haqqında məsələyə dair» və s. aktual problemlərə həsr edilmiş əsərləri dərc edilmişdir. Əksəriyyəti milli dildə dərc edilən bu əsərlərin respublikada hüquqşünas kadrların yeni nəslinin hazırlanmasında böyük əhəmiyyəti olmuşdur.

Yüksək ünsiyyət mədəniyyəti, sadəliyi və səmimiliyi, peşəkar elmi-nəzəri hazırlığı Cəfər müəllimi tələbələrin, müəllim-professor heyətinin sevimlisinə çevirmiş, ona böyük hörmət gətirmiş, nüfuz qazandırmışdır. Cəfər müəllimin elmi-tədqiqat işləri çoxistiqamətli olmuşdur. Onun ayrı-ayrı cinayətlərin istintaq taktikası və metodikasına həsr etdiyi işlər içərisində «Şəxsi əmlakın evdən oğurlanması cinayətlərinin istintaqı», «Hadisə yerinin müayinəsi», «Kriminalistika texnikası» və s. bu kimi dərs vəsaitləri kriminalistika elminin tələbələrə təlimində bu gün də öz elmi-praktiki əhəmiyyətini saxlayır. Cəfər müəllimin intensiv elmi axtarışları onu doktorluq dissertasiyası müdafiə etməyə sövq etdi. O, 1966-cı ilin yanvar ayında Tbilisi şəhərində «Azərbaycan SSR-də məhkəmələrin və cinayət-prosessual qanunvericiliyinin meydana gəlməsi və inkişafı (1917-1937)» mövzusunda müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmişdir. Doktorluq dissertasiyası Cəfər müəllimin gərgin zəhmətinin, yorulmadan apardığı elmi-tədqiqat işlərinin məntiqi nəticəsi idi.

Respublikada cinayət prosesi sahəsində ilk dəfə hüquq elmləri namizədi və doktoru elmi dərəcələrini məhz o almışdır. Hüquq elmləri doktoru elmi adını aldıqdan sonra da Cəfər müəllim cinayət hüququ kafedrasında özünun elmi-pedaqoji fəaliyyətini davam etdirmişdir.

Sadə və mehriban insan, görkəmli alim, gözəl pedaqoq və tərbiyəçi Cəfər müəllim şərəfli ömür yolu keçmişdir. O, ömrünün 53 ilini respublikada ali təhsilli hüquqşünas kadrların yetişməsinə həsr etmişdir. O, 53 il ərzində qəlbinin hərarətini, biliyini minlərlə gənclərə verməklə, qayğı və diqqətini onlardan əsirgəməmiş, bütün tələbələrində haqqa, ədalətə sədaqət hissini tərbiyə etmişdir.

Ömrünün 78 ili ərzində öyrənən və öyrədən insan 24 yaşında elmlər namizədi, 39 yaşında hüquq elmləri doktoru olmuşdur.

1968-ci ildən cinayət hüququ kafedrasından ayrılan cinayət prosesi və kriminalistika kafedrasına Cəfər müəllim tərəfindən rəhbərlik edilir. Keçən 38 il ərzində Cəfər müəllimin gərgin əməyi sayəsində kafedra tədrisin və metodik işin, elmi-tədqiqat işlərinin təşkili və aparılmasında yüksək inkişaf səviyyəsinə çatmışdır. Cəfər müəllimin böyük zəhməti nəticəsində ilk dəfə milli dildə yazılan və nəşr edilən «Sovet cinayət prosesi» dərsliyi, «Azərbaycan SSR-də cinayət prosesi» (ümumi və xüsusi hissələr) dərs vəsaitləri respublikada ali təhsilli hüquqşünas kadrların bir neçə nəslinin hazırlanması işinə kömək göstərmiş və bu gün də hüquq təhsili alan tələbələrə «Cinayət prosesi» fənninin dərindən öyrənilməsinə kömək edir.

Cəfər müəllim ümimi sayı 100-dən artıq olan dərc edilmiş elmi, elmi-metodiki əsərlərin, dərsliyin və dərs vəsaitlərinin müəllifidir. Bunların ümumi həcmi 70 çap vərəqindən artıqdır.

Cəfər müəllimin həm respublika üçün, həm də respublikadan kənarda – keçmiş SSRİ məkanında elmi kadrların hazırlanmasında da böyük əməyi olmuşdur. Onun bilavasitə rəhbərliyi ilə iki elmlər doktoru, ondan artıq elmlər namizədləri yetişdirilmişdir. Cəfər müəllim respublikada, habelə keçmiş SSRİ-nin müxtəlif şəhərlərində onlarla doktorluq və namizədlik dissertasiyalarının müdafiəsində opponent qismində çıxış etmişdir.

Professor Mövsümov geniş elmi spektrə malik olan bir alim idi. O, təkcə cinayət prosesi sahəsində deyil, digər hüquq sahələrində də dərin iz qoymuşdur. O, Bakı kriminalistika laboratoriyasının ilkin əməkdaşlarından biri olmuş, respublikanın Ədliyyə Nazirliyi nəzdində 1956-cı ildə təşkil olunmuş ilk kriminalistik elmi-tədqiqat laboratoriyasının yaradıcılarından idi.

Professor C.Mövsümov BDU-nun hüquq fakültəsində, habelə respublika Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası Elmi-Tədqiqat İnstitutunun elmi şuralarının üzvü idi. O, cinayət hüququ, cinayət prosesi və kriminalistika elmləri istiqamətində namizədlik dissertasiyalarının müdafiəsi üzrə İxtisaslaşmış Şuranın sədri idi.

Cəfər müəllim respublikanın ictimai həyatında da yaxından iştirak edirdi. O, Azərbaycan Respublikası Ali Məhkəməsi və Respublika Prokurorluğu yanındakı elmi-məsləhət şuralarının üzvü idi. Onun bilavasitə iştirakı ilə qanunvericiliyin təcrübədə düzgün tətbiqinə yönələn tövsiyələr hazırlanırdı.

Cəfər müəllim Azərbaycan Respublikası Prezidenti yanında yaradılan Hüquqi İslahat Komissiyasının üzvü olmuşdur. O, səmərəli məsləhətləri ilə müvafiq qanunları hazırlayan işçi qrupuna kömək edir, əksər qanun layihələrinin müzakirəsində yaxından iştirak edirdi.

Cəfər Hacı Həsən oğlu Mövsümov analitik təfəkkürü, fenomen yaddaşı, zəhmətsevərliyi, təşkilatçılıq qabiliyyəti ilə fərqlənirdi. O, sadə və mehribanlığı ilə, qayğıkeşliyi və düzgünlüyü ilə hamının məhəbbət və hörmətini qazanmış, rəftarında sözün ağır və yüngüllüyünə zərgər dəqiqliyi ilə fikir verən, münasibətlərində aydınlığı sevən nəcib bir insan idi. Cəfər şəxsiyyətinin, Cəfər nüfuzunun mövcudluğu ədalətin tapdalanmasına sipər çəkir, ətrafdakıları əxlaqi saflığa, təmizliyə, mədəniyyətə dəvət edirdi.

Azərbaycan hüquqşünaslığının elə görkəmli nümayəndələri var ki, onların həm şəxsiyyəti, həm də fəaliyyəti bütöv bir məktəbdir və xüsusilə bu gün – cəmiyyətin demokratikləşməsi, müstəqil və hüquqi dövlət quruculuğu dövründə xalqın belə məktəb-şəxsiyyətlərə ehtiyacı tamamilə təbiidir. Cəfər Hacı Həsən oğlu Mövsümov həmin hüquqşünaslardan biridir. Cəfər müəllim görkəmli alim, nəcib insan kimi respublikada, onun hüdudlarından çox-çox uzaqlarda tanınır. Ömrü boyu neçə-neçə nəslin zəkasına nur saçmış bu insan bu gün də yaşayıb başa vurduğu mənalı və ibrətamiz həyat yolu ilə dar günlərimizin köməkçisi, çətin anlarımızın məsləhətçisidir.

Böyük həyat eşqi ilə yaşayan Cəfər müəllim ömrünün 78-ci baharında öz dünyasını dəyişdi. Allah ona qəni-qəni rəhmət eləsin, əbədi mənzilini nurla işıqlandırsın.

***Redaksiya heyəti***